


# İNKİŞAF SİYASƏTİ

# "İNVEST-AZ İNVESTİSİYA ŞİRKƏTİ" QSC
# İNKİŞAF SİYASƏTİ

## 1. Ümumi müddəalar

1.1 "İNVEST-AZ İNVESTİSİYA ŞİRKƏTİ" QSC-nin (bundan sonra – Cəmiyyət) inkişaf siyasəti Cəmiyyətin strateji dəyərlərinin yüksəldilməsi, insan resurslarının idarə edilməsi üzrə sistemləri, maliyyə idarəçiliyi sistemlərini təkmilləşdirmə üzrə əsas niyyətlərini və prioritet istiqamətlərini müəyyən edir.

1.2 Siyasət Azərbaycan Respublikasının qanunvericiliyi, o cümlədən "Qiymətli kağızlar bazarı haqqında" Azərbaycan Respublikasının Qanununun və Azərbaycan Respublikasının Mərkəzi Bankının normativ xarakterli aktları əsasında hazırlanmışdır.

## 2. Cəmiyyətin inkişaf siyasəti üzrə prioritet istiqamətləri

2.1 Cəmiyyətin strateji dəyərlərinin yüksəldilməsi üzrə prioritet istiqamətləri aşağıdakılardır:

2.1.1 Fəaliyyətini şəffaflıq, ədalətlilik və dürüstlük prinsipləri əsasında həyata keçirmək;

2.1.2 Dövlət orqanları qarşısında öz öhdəliklərini yerinə yetirmək və qanunvericilik ilə müəyyən edilmiş qaydada, müddətdə və məbləğdə vergi və digər icbari ödənişləri ödəmək;

2.1.3 Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizəni dəstəkləmək;

2.1.4 Müştəri məlumatlarının, konfidensiallığın tam qorunmasını təmin etmək;

2.1.5 Müştərilər qarşısında öhdəliklərin tam yerinə yetirilməsi məqsədi ilə kifayət qədər ehtiyat fondu formalaşdırmaq;

2.1.6 Ölkənin maliyyə bazarlarının inkişafına töhvə vermək;

2.1.7 Təqdim ediləcək məhsul çeşidini diversifikasiya etmək.

2.2 Cəmiyyətin insan resurslarının idarə edilməsi üzrə sistemlərin təkmilləşdirilməsi üzrə prioritet istiqamətləri aşağıdakılardır:

2.2.1 İşəqəbul sistemini təkmilləşdirmək;

2.2.2 Əməyin qiymətləndirilməsi sistemini təkmilləşdirmək;

2.2.3 Karyera planlaşması sistemini təkmilləşdirmək;

2.2.4 Peşəkar kollektivin və sağlam iş mühitinin mövcud olmasını təmin etmək

2.2.5 İnsan resurslarının planlaşması sistemini təkmilləşdirmək;

2.2.6 Mövcud işçilərin bilik səviyyələrinin artırılması məqsədilə davamlı təlimlərin keçirilməsini təmin etmək.

2.3 Cəmiyyətin maliyyə idarəçiliyi işinin təkmilləşdirilməsi üzrə priotitet istiqamətləri aşağıdakılardır:

2.3.1 Maliyyə planlaması və maliyyə idarəçiliyinə nəzarət prosesini təkmilləşdirmək;

2.3.2 Cəmiyyətin maliyyə hesabatlarının həm yerli qanunvericiliyə, həm də Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına uyğunluğunu təmin etmək;

2.3.3 Cəmiyyətin maliyyə göstəricilərini daima yaxşılaşdırmaq, gəlir və xərclərə nəzarət etmək və vəsaitlərdən səmərəli istifadəni təmin etmək;

2.3.4 İdarəetmə xərclərinin optimallaşdırılmasını təmin etmək.

## 3. Yekun müddəalar

3.1 Bu Siyasət təsdiq edildiyi gündən qüvvəyə minir.

3.2 Bu Siyasətə əlavə və dəyişikliklər yalnız Müşahidə Şurasının qərarı ilə edilə bilər.

3.3 Azərbaycan Respublikasının qanunvericiliyi, Cəmiyyətin Nizamnaməsi, Cəmiyyətin nəzarət və idarəetmə orqanlarının qəbul etdiyi daxili normativ sənədlər ilə bu Siyasətin müddəaları arasında ziddiyyət yaranarsa, birincilər üstün hüquqi qüvvəyə malikdirlər.

3.4 Azərbaycan Respublikasının qanunvericiliyin dəyişiklik edilməsi nəticəsində bu Siyasətin hər hansı müddəası ilə qanunvericilik arasında ziddiyyət yaranarsa, həmin müddəa qüvvədən düşmüş hesab edilir.

Bakı şəhəri, Xətai rayonu, Fəzail Bayramov 28F, INVEST-AZ Plaza
info@**investaz.az** *1234 | (012) 488 05 88